**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Фарамаз Хазар оглы Акбериан**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕЛИГИОЗНОЙ ИДЕНТИЧНОСТИ У ПОДРОСТКОВ

**6104.01- Педагогическая психология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FƏRƏMƏZ HƏZƏR OĞLU ƏKBƏRİAN**

# YENİYETMƏLƏRDƏ DİNİ İDENTİKLİYİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**6104.01 - Pedaqoji psixologiya**

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** psixologiya üzrə elmlər doktoru
**İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**

**Rəsmi opponentlər:** pedaqogika üzrə elmlər doktoru, professor
**Sərdar Musa oğlu Quliyev**

Psixologiya üzrə fəlsəfə doktoru
**Kəmalə Bahəzər qızı Salamova**

**Aparıcı müəssisə:** Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrası

Müdafiə "_24_" _05__" 2013 –cü il saat "______"-da Bakı Dövlət Universitetinin nəzdində yaradılmış FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "______" "_________" 2013- cü ildə göndərilib.

**FD. 02.014 Dissertasiya şurasının elmi katibi** **psixologiya üzrə fəlsəfə doktoru**
**Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş № 548; tiraj 100
«MBM» nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yeniyetməlik yaş dövrü öz xarakterinə görə olduqca mürəkkəb və böhranlı yaş dövrüdür. Bu yaş dövründə fizioloji dəyişikliklərin və cinsi yetişmənin başlanması, yeni dünyagörüşün otaya çıxması, mənlik şüurunun formalaşması, eləcə də yeniyetmənin öz kimliyi haqqında mütamadi sualların yaranması onların düşüncəsində ziddiyyətlər və şəxsiyyətində mənəvi boşluqlar yaradır. Yaranmış mənəvi boşluqlar valideynlər və müəllimlər tərəfindən vaxtında aradan qaldırılmadıqda yeniyetmələr müxtəlif dini məhzəblərin, sektaların təsiri altına düşür və bunun nəticəsində onların şəxsiyyət kimi inkişafında, təhsilində və gələcək perspektivlərində neqativ yönümlü meyllər meydana çıxır.

Bununla yanaşı yeniyetməlik yaş dövrü uşaqlıqdan böyüklüyə keçid dövrü olduğundan, bir sıra həyati məsələlər onlar tərəfindən hələ də tam dərk olunmadığından onlarda dini identiklik problemləri ortaya çıxır, dini qaydalara riyayət etməkdə və dini ayinləri icra etməkdə müxtəlif problemlərlə qarşılaşırlar.

Nəzərə almaq lazımdır ki, son illərdə yeniyetmələrin şəxsiyyəti və dini identikliyi problemi psixoloqların, o cümlədən müxtəlif elm sahəsinin tədqiqatçılarının müzakirə obyektinə çevrilmişdir. Lakin bu sahədə aparılmış tədqiqatlar yeniyetmələrdə dini identikliyin yaranma mexanizmini və onun ifrat səviyyədə təzahürünün pedaqoji cəhətlərini açmağa imkan vermir. Başqa bir tərəfdən isə aparılmış tədqiqatlarda dini identikliyin adekvat psixoloji mənzərəsi yaradılmamış, etnik-milli şəraitdə onun təşəkkülünün psixopedaqoji məsələləri sistemli öyrənilməmişdir. Bu da problemin müasir dövr üçün akual olduğundan xəbər verir. Bütün bunlarla yanaşı mexaniki olaraq dini ayinlərin əzbər öyrənilməsi, onların mahiyyətinin dərk olunmaması da sonda yeniyetmələrdə xurafatçı kimi təsəvvürlərin yaranmasına şərait yaradır və onlarda elmi-dini dünyagörüşün formalaşmasına ciddi zərbə vurur. Dini təsəvvürlərdəki elmi fikirlər, dünya və insanlıq haqqındakı pozitiv mülahizələr, o cümlədən insanın davranış kodeksi haqqındakı fikirlər yeniyetmənin davranışını tənzimləyə, onun cəmiyyət üçün faydalı insana çevrilməsinə zəmin yarada bilər. Bu baxımdan da yeniyetmələrdə dini identiklik haqqında pozi-

tiv təsəvvürlərin yaradılması onları antisosial davranışdan çəkindirir və davamlı əxlaqi davranış tərzi nümayiş etdirmələrinə stimul yaradır. Bütün bunlar «Yeniyetmələrdə dini identikliyin psixoloji xüsusiyyətləri» mövzusunun tədqiqat obyekti kimi seçilməsinin məqsədəuyğunluğunu göstərir.

**Mövzunun işlənmə səviyyəsi.** Problemin işlənmə səviyyəsinə nəzər saldıqda görürük ki, dini identikliklə əlaqədar təsəvvürlər klassik qaydada üç dindən – yəhudilik (Tövrat), xristianlıq (İncil) və müsəlmanlıqdan (Qurani-Kərim) qaynaqlanır. Dini ədəbiyyatlarda yeniyetmələrin dini identikliyi ilə bağlı məsələlər sistemsiz və yaxud səthi təsvir edilir və dini qaydalara əməl olunması tövsiyə edilir. Amma müasir dövrdə dinlər səviyyəsində aparılmış tədqiqatların köməyi ilə pedaqoji və dini psixologiya sahəsində mühüm addımlar atılmış, dini qaydaların psixologiyası və fəlsəfəsi açıqlanmışdır.

Azərbaycanda yeniyetmə şəxsiyyətinin öyrənilməsində B.H.Əliyevin, Ə.S.Bayramovun, Ə.Ə.Əlizadənin, S.İ.Seyidovun, R.V.Cabbarovun, R.İ.Əliyevin, Q.E.Əzimovun, K.R.Əliyevanın, E.İ.Şəfiyevanın, G.Hüseynovanın, T.T.Musayevanın, Ə.T.Baxşəliyevin və başqalarının tədqiqatlarını xüsusi qeyd etmək olar. Bu tədqiqatlarda yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri təhlil edilmiş, identikliyin formalaşmasının psixoloji məsələləri diqqət mərkəzinə gətirilmişdir. Azərbaycan psixoloqu R.H.Qədirovanın milli və dini identikliklə bağlı tədqiqatı olduqca sanballı və təqdirə layiq tədqiqat işidir.

Müxtəlif tədqiqatlarda yeniyetmənin identikliyi haqqında J.J.Russo, E.Erikson, L.Kolberq, S.Hal, H.Fild, M.Dobs, Z.Freyd, K.Levin, J.Piaje, A.Maslou və b. elmi müddəalar irəli sürmüş və bu sahəni yeni nəzəri və praktik biliklərlə zənginləşdirmişlər. Bununla yanaşı Ə.Ə.Əlizadə R.Kuçtekov, S.Lapik, P.Şotov, A.Bandura, F.Rays, İ.Kon və b. yeniyetmələrdə cinsi tərbiyə istiqamətində sanballı tədqiqatlar aparmışlar.

İslam dünyasında da pedaqoji, yaş və şəxsiyyət psixologiyası sahəsində M.Rüstəmi, R.Nobahar, X.Keymonş, Ə.Qaimi, Ə.Şuari Nejad, Q. Şukuri, S. Yəzdi, A.Movhid, H.Raşidi, A.Pərvin və b. yeniyetmələrdə dini identikliyin formalaşdırılması, yeniyetmələrin namaz və oruc tutmağa istiqamətləndirilməsi yolları, İslam dinində yeniyetmələrin tərbiyəsi metodu, yeniyetmələrin fiziki və psixoloji inkişafı ilə bağlı tədqiqatlar aparmışlar. Lakin bu tədqiqatlar yeniy-

etmələrdə dini identiklik problemini tamamilə əhatə etmir və bu da problemin bir daha aktual olduğunu göstərir.

**Tədqiqatın obyekti** milli-etnik mühitdə yeniyetmələrdə dini identikliyin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** yeniyetmələrdə dini identikliyin psixoloji xüsusiyyətlərinin öyrənilməsidir.

**Tədqiqatın məqsədi.** Aparılmış tədqiqatın əsas məqsədi yeniyetmələrdə dini identikliyin formalaşmasının psixoloji mexanizmlərinin ayırd edilməsi, dini idnetikliyə təsir göstərən amillər, qeyri-adekvat dini identikliyin yaratdığı fəsadlar və onların reabilitasiyanın optimal yollarını tapmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Yeniyetmələrin dini identikliyi əhəmiyyətli dərəcədə onların fərdi-psixoloji xüsusiyyətləri və dini dünyagörüşlərinin təşəkkül səviyyəsi ilə şərtlənir.

Əsas fərziyyə ilə yanaşı bir sıra köməkçi fərziyyələr də götürülmüşdür:

- Yeniyetmələrin dini identikliyinin formalaşmasında ailə, məktəb və ictimai mühitin rolu böyükdür;
- Yeniyetmələrin dini identikliyi müsbət yönümdə istiqamətləndirilməzsə, bu onların həmyaşıdlar və cəmiyyətin qrupları arasında istənilən mənfi davranış tərzlərini qazanmasına səbəb ola bilər.

**Tədqiqatın vəzifələri.** Dissertasiya işində qarşıya qoyulmuş başlıca məqsədə nail olmaq üçün bir sıra konkret vəzifələrin həyata keçirilməsinə cəhd edilmişdir :

1. Şəxsiyyət və dini identiklik anlayışının psixoloji mahiyyətinin araşdırılması;
2. Yeniyetmələrin psixoloji xüsusiyyətlərinin təhlil edilməsi;
3. Problemlə bağlı tədqiqat işlərinin müqayisəli təhlili;
4. Yeniyetmələrdə dini identikliyin formalaşmasında ailənin, məktəbin və ictimai-mədəni mühitin rolunun araşdırılması;
5. Yeniyetmələrdə qeyri-adekvat dini identikliyin formalaşmasının psixoloji səbəblərinin müəyyən edilməsi və onun qarşısınının alınması üçün optimal yol və vasitələrin işlənib hazırlanması.

**Tədqiqatın elmi yeniliyi.** Bu tədqiqat işində əvvəlki tədqiqatlardan fərqli olaraq yeniyetməlik yaş dövründə şəxsiyyət və dini identiklik böhranı öyrənilmiş, dini identikliyə təsir göstərən amillər sistemləşdirilmiş, dini identikliyin formalaşmasının yaş meyarları ayırd edilmiş,

yeniyetmələrdə dini identikliyin təzahür xüsusiyyətləri diqqət mərkəzinə gətirilmişdir. Bununla belə ilk dəfə olraq bu işdə:

- Yeniyetmələrin dini identiklik meyarları və onun psixopedaqoji baxımdan təzahürü müəyyən edilmiş;

-Yeniyetmələrin dini identikliyinin ailə, məktəb və ictimai-mədəni mühit kontekstində formalaşdırılmasının optimal yol və vasitələrinin yaradılmasının effektiv cəhətləri göstərilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

-Yeniyetmələrdə dini identikliyin formalaşması istiqamətləri dini motivlərin təzahür xüsusiyyətlərindən, yeniyetmənin özünü və gercəkliyi dərketmə səviyyəsindən, dini ayinlərin icra tərzindən və intensivliyindən, eləcə də təlim fəaliyyətində dini məsələlərin konkret təbliğindən asılıdır;

- Yeniyetmələrdə dini identikliyin təşəkkülünün psixoloji mexanizmi onların dini dünyagörüşünün, özünüdərkinin səviyyəsi və fərdi-psixoloji xüsusiyyətləri ilə də şərtlənir;

- Yeniyetmələrdə dini identikliyin ayırd edilmiş şəxsi və xarakterik xüsusiyyətləri, mili-etnik stereotiplər və yönümlər, dini məsələlərə hazırlıq səviyyələri və s. kimi cəhətlər onların dini identifikasiyasının meyarları kimi çıxış edə və dini ayinlərin icrasının təhrikedici amili ola bilər;

- Qeyri-adekvat dini identikliyin formalaşması yeniyetmələrin neqativ yönümdə özlərini aktuallaşdırmasına gətirib çıxara bilər ki, bu da onların psixoloji korreksiyasında çətinlik yarada bilər. Belə neqativ halların aradan qaldırılması üçün yeniyetmələrə fərdi yanaşmaq və onları adekvat dini təsəvvürlərə yiyələnməsinə şərait yaratmaq lazımdır.

**Tədqiqatın metodoloji əsasları və metodikası.**Tədqiqatın metodoloji əsasını müasir pedaqoji psixologiyada ümumən qəbul olunmuş nəzəri prinsiplər və müddəalar təşkil edir. Bu prinsiplər əsasında işlənib hazırlanan və inkişaf etdirilən araşdırma üsulları tədqiqatın gedişində əsas elmi-praktik vasitə kimi çıxış edir. Burada pedaqoji psixologiyada geniş istifadə olunan eksperiment, müşahidə, intervü, anketləşdirmə, müqayisəli-pedaqoji-psixoloji təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Yeniyetmələrin dini identikliyinin pedaqoji psixologiya kontekstində araşdırılması yeniyetmələrin tər-

biyəsində dini məsələlərin adekvat qavranılmasına zəmin yaradır. Yeniyetmələrin dini identikliyini əhatə edən tədqiqat pedaqoji psixologiya, dini psixologiya və yaş psixologiyasında bir sıra problemlərin metodoloji baxımndan həllinə şərait yaradır. Əldə olunmuş nəticələr pedaqoji psixologiyanı yeni elmi biliklərlə zənginləşdirir, bu sahədə yeni elmi istiqamətlərin yaranmasına zəmin formalaşdırır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Pedaqoji psixologiya kontekstində yeniyetmələrin psixoloji xüsusiyyətləri nəzərə alınmaqla onların dini identikliyi ilə bağlı əldə edilmiş nəticələrdən yeniyetmələrin psixoloji xüsusiyyətlərinin dərk olunması, dini identikliyin müxtəlif xarakterik xüsusiyyətləri, həmçinin ailə və məktəb çərçivəsində yeniyetmələrdə onun formalaşdırılması işində istifadə etmək olar. Eyni zamanda ictimai-mədəni həyatın yaxşılaşdırılması və sağlam mühitin yaradılması, eləcə də meydana gəlmiş problemlərin həlli üçün də bu tədqiqatdan faydalanmaq mümkündür.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatların nəticələri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının elmi seminarlarında və beynəlxalq konfranslarda müzakirə edilmiş, müvafiq məqalə və tezislər şəklində çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, fərziyyəsi formulə edilir, tədqiqatın metodoloji əsasları müəyyənləşdirilir. Həmçinin tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **«Yeniyetməlik yaş dövründə şəxsiyyət və dini anlayışlar»** adlanan I fəsli iki yarımfəsildən ibarətdir. Burada yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri təhlil olunur və dini anlayışların formalaşmasının psixoloji məsələləri diqqət mərkəzinə gətirilir.

I fəslin **«Dini identikliyin meyarları»** adlanan birinci yarımfəslində dini idnetikliyin meyarları qruplaşdırılmış və bu sahədə mövcud olan təsəvvürlər sistemləşdirilmişdir.

I fəslin **«Yeniyetmələrdə dini identikliyin növləri»** adlanan ikinci

yarımfəslində yeniyetmələrdə dini idnetikliyin formalaşmasının əsas istiqamətləri təhlil edilmişdir. Bu yarımfəsildə dini idnetikliyin formalaşmasının metodları qeyd olunur. Bu yarımfəsildə göstərilir kı, psixoloqların fikrincə, dini identikliyin qazanılmasında əsas müvəffəqiyyət yeniyetmənin şəxsiyyət kimi formalaşması istiqamətlərindən asılıdır.Qeyd olunur ki, cəmiyyətdə mövcud olan dini məzhəbin identiklik böhranının aradan qaldırılmasına kömək edir və dini məzhəbin mövcud olmadığı cəmiyyətlərdə yeniyetmələr daha güclü böhrana məruz qalırlar. Bununla yanaşı bu yarımfəsildə dini identikliyin müxtəlif növləri təhlil olunur.

I fəslin **«Yeniyetmələr və dini etiqadlar»** adlanan üçüncü yarımfəslində yeniyetmələr və dini etiqadlar məsələsi diqqət mərəkəzinə gətirilmişdir. Burada göstərilir ki, yeniyetmələrdə dini etiqadlar haqqında təsəvvürlərin adekvat formalaşmamasını valideynlərin diqqətsizliyində, yaxud onlarda dini məzhəb etiqadının olmamasında görmək olar. Kohlen və Arnold göstərirlər ki, valideynlər yeniyetmələrdə əxlaqi meyllərin keçməsinə yol verməməlidirlər. Çünki yeniyetmələr belə meyllərə mənəvi əxlaqdan daha çox həvəsli olurlar. Yeniyetmələrin dini məzhəbə olan həvəsi həqiqi dini inama əsaslandıqda, davranış və rəftarlarında sədaqət və təmizlik müşahidə olunduğu halda artır. Bu yarımfəsildə yeniyetmələrdə dini etiqadların formalaşmasınn pedaqoji və psixoloji mexanizmləri açıqlanır, onlarda dini inam haqqında təsəvvürlərin təşəkkülünün xüsusiyyətləri göstərilir.

I fəslin **«Psixopedaqoji tədqiqatlarda yeniyetməlik yaş dövrünün xüsusiyyətlərinin tədqiqi istiqamətləri»** adlanan dördüncü yarımfəslində yeniyetməlik dövrü həyatın çox mühüm bir mərhələsi kimi səciyyələndirilmişdir. Yeniyetməlik öz əsas xüsusiyyətləri ilə insan həyatının başqa dövrlərindən fərqlənən bir dövrdür. Yeniyetməlik yaş dövründə baş verən ciddi dəyişikliklər bir çox tədqiqatçıların bu sahəyə diqqətini artırmış və müxtəlif istiqamətlərdən öyrənilmişdir. Bu yarımfəsildə yeniyetməlik dövrünə həsr olunmuş tədqiqatlarda dominantlıq təşkil edən nəzəriyyələr, o cümlədən sosial öyrənmə və psixoanalitik məktəbin müddəaları təhlil olunmuş, yeniyetməlik yaş dövründə özünü göstərən mənəvi boşluqların şəxsiyyətdaxili konfiliktlərin səbəbləri kimi göstərilmişdir.

I fəslin **«Dini identiklik baxımından yeniyetməlik yaş dövrünün xüsusiyyətləri»** adlanan beşinci yarımfəslində dini baxımından ye-

niyetməlik yaş dövrü təhlil olunmuşdur. Bu yarımfəsildə dini məsələlərə daha çox diqqət yetirilmişdir. Burada Məhəmməd Peyğəmbərin kəlamları qeyd olunmuş, onun yeniyetməlik haqqında fikirləri təhlil edilmiş, dini inama əsaslanan əqidənin formalaşmasının yolları qeyd olunmuşdur. Həmçinin burada adekvat dini dəyərlərin yeniyetmənin həyatında onynadığı rol araşdırılır və dini-psixoloji baxımdan əsaslandırılır.

I fəslin **«Yeniyetmələrin dinə baxışında idrak və emosiyalarınnın rolu»** adlanan altıncı yarımfəslində yeniyetmələrin xüsusiyyətlərindəndən fərqli olaraq inkişafın idrakı və xarakterik xüsusiyyətlərinin təhlili verilmişdir. Burada göstərilir ki, yeniyetmə yaşında abstrakt və mücərrəd təfəkkürün inkişafı, onlarda həqiqətləri dərk etmək ehtiyacını artırır. Bu dövrdə yeniyetmə onda baş vermiş idraki dəyişiklik əsasında uşağın öncəki dövrlərdə aciz olduğu bir işi görməyə - fikirlərini nizama salmağa başlayır. Bu yaşlarda yeniyetmələr təbiətin yaranması, insanın yaşamağının mənası və hətta özləri haqqında ilk dəfə olaraq suallar verməyə başlayırlar. Bunun nəticəsidir ki, onlar bəzən böyüklərlə münasibətdə ciddi konfiliktlətlə qarşılaşırlar. Əksər hallarda böyüklərlə konflikt səbəbindən yeniyetmələr təqdim etdikləri dini məzhəb və əxlaq mübahisəyə çevrilir və valideynlərlə münasibətlərin pozulmasına gətirib çıxarır. Valideynlər və pedaqoqlar bunu nəzərə almalıdırlar.

Dissertasiyanın **«Yeniyetmələrdə dini identikliyin formalaşmasının və inkişafının psixoloji məsələləri»** adlanan II fəsli dörd yarımfəsildən ibarətdir. II fəslin «**Dini identiklik və yeniyetmələrdə onun formalaşması»** adlanan birinci yarımfəslində yeniyetmələrin dini identikliyinin formalaşması məsələləri diqqət mərəkəzinə gətirilir. Burada göstərilir ki, yeniyetmələrin inkişafı ilə əlaqədar qarşıya qoyulan məqsədlərdən biri də identikliyin qazanılmasıdır. Yeniyetmələrdə tez-tez özünü büruzə verən "Mən kiməm?, Kim olmalıyam?" kimi suallar onun həyat perspektivlərinə nəzər salmağı tələb edir və yeniyetmə bir sıra hallarda dinə sığınır. Burada qeyd olunur ki, belə vəziyyətdən istifadə edən bəzi din adamları onlara ayrı-ayrı dini sektaların təsiri altına düşməsinə şərait yaradır və onlarda xürafatçılığı inkişaf etdirirlər.

Dissertasiyanın II fəslinin «**Yeniyetmələrdə dini identikliyin tədqiqi istiqamətləri»** adlanan ikinci yarımfəslində yeniyetmələrdə dini

identikliyin öyrənilməsi istiqamətləri qruplaşdırılmış, yenyetmələrdə dini ayinlərin yerinə yetirilməsinin təzahürləri təsvir olunmuşdur. Burada göstərilir ki, yeniyetmələrin müxtəlif münasibətlərdə və dini əməllərin icra edilməsində, dini mərasimlərlə tanış olma üsullarında ön plana çəkilənlər namaz qılmaq, oruc tutmaq, ataya, anaya, böyüklərə və dini etiqadlara ehtiram göstərmək kimi münasibətlər aiddir. Bunları nəzərə almaq və yeniyetmənin davranışını istiqamətləndirmək hər bir valideynin və tərbiyəçinin vəzifəsidir.

Dissertasiyanın II fəslinin «**Yeniyetmələrin dini identikliyinin formalaşmasına təsir edən amillər**» adlanan üçüncü yarımfəslində göstərilir ki, yeniyetmələrin dini identikliyinin formalaşmasında müxtəlif amillərin təsiri vardır. Bunlara ailə, məktəb, yaşayış mühiti, dini-ictimai ənənə, kütləvi informasiya vasitələri yaxud mədəni vasitələr, dini identikliyin formalaşmasının kökləri və s. daxildir. Yeniyetmələrin dini identikliyin formalaşmasında ailə mühüm rol oynayır. Din islahatında ailə cəmiyyətin əsasını təşkil edən bir insan qrupudur. Ailənin binası qadın və kişi arasındakı bərabər əlaqələr əsasında qurulub və əsas qayəsi həyat səhnəsinə qədəm qoyacaq övladlar yetişdirməkdir. Pedaqoji-psixoloji yönümdə tədqiqat aparan alimlərin fikrincə, ailə yeniyetmənin şəxsiyyətinin ilkin dayaqlarını təşkil edən birinci təsissat olmaqla xüsusi əhəmiyyətə malikdir. Ailə hər bir yeniyetmənin özünün və dini identikliyinin tapması üçün əsas bəşəri və vacib bir məktəbdir.

Dissertasiyanın II fəslinin «**Sosial-mədəni amillərin dini identikliyin yaranmasına təsiri** » adlanan üçüncü yarımfəslində göstərilir ki, insan bir varlıq olaraq sosial, şüurlu, istedadlı, güclü bacarıqlara və şəxsi keyfiyyətlərə malik olub, ictimai həyat prosesində fərdi qarşılıqlı münasibəti ilə fərqlənərək formalaşır. Pedaqoqların fikrincə, insanın yaranma prinsiplərinin inkişaf, kamilləşmə və çiçəklənmə meyarları, xüsusilə də dini identiklik meyarı yalnız kollektiv həyat və ictimai məsuliyyətin qəbul olunması sayəsində mümkün olur. Çünki yeniyetmə əsasən şüurlu, təbiətən məsuliyyətli və öhdəlikçi olaraq yaranmışdır. Həmçinin yeniyetmənin dini identikliyinin yaranmasında mümkün əhəmiyyətə malik amillər cəmiyyət və onun mədəniyyətidir. Hər bir cəmiyyətin dəyərlər, inamlar, baxışlar, ədəb və qanunlar məcmusu olan mədəniyyət bir tərəfdən ümumi mədəniyyətdən qaynaqlanaraq cəmiyyətə hakim olan, digər tərəfdən isə

ona təsir edən iki müqəddəs göstərici - ailə və məktəblə əlaqələnlidir. Cəmiyyətin strukturu və mədəni ənənələr də şəxsiyyətin və dini identikliyin yaranmasında təsirli amildir.

Dissertasiyanın «**Qurani-Kərim və yeniyetmələrin dini identikliyinin qarşılıqlı təsiri**» adlanan III fəsli altı yarımfəsildən ibarətdir. Dissertasiyanın «**Qurani-Kərimdə yeniyetmələrin dini identikliyi haqqında fikirlərin təhlili**» adlanan III fəslinin birinci yarımfəslində Qurani-Kərimdə ilahi qanunlar mömin kişi və qadınları yaxşılıqlara təşviq edən, pislik və günahlardan uzaqlaşdıran insanlar kimi təqdim edilməsi göstərilir. Qeyd olunur ki, Allah-təla bir çox ayələrdə iman gətirən və saleh əməllər icra edən insanları şərəfləndirir və onlara bol-bol bəxşişlər vəd edir. Yaradan bu insanları xoşbəxt edir, bu dünyada onlara əvəz və nemətlər bəxş edir. Yaradan həmçinin vəd edir ki, saleh əməllər edən insanlara axirət payı verəcək və möminlərin payını daha da çoxaldacaq. Çünki Allah yaxşı əməl sahiblərini sevir və O, Qurani-Kərimin bir çox ayələrində pislikləri rədd edir. Bu yarımfəsildə Qurani-Kərim və yeniyetmələrin dini identikliyinin qarşılıqlı təsiri sistemli təhlil olunur.

Dissertasiyanın **«İslam dini ilə xristianlıq arasında ümumi əlaqələr»** adlanan III fəslinin ikinci yarımfəslində göstərilir ki, Müqəddəs Kitabın on əsas qanunu İlahinin insanlara göndərdiyi qanunlardır. Digər qanun və fərmanlar İlahinin iradəsini insanlara bəyan etməyə və onları dövrün vəziyyətinə uyğun müəyyən etməyə çalışır. Həmçinin peyğəmbərlərin və Həzrəti İsanın kəlamları belə bir məqsədə yönəlib ki, o fərman daha aydın bəyan olunsun və bu fərmanlar yaşadıqları əsr və zamana uyğun olsun. Bununla yanaşı burada islam və xristianlığın insanların tərbiyəsində və əxlaqının formalaşmasında rolu açıqlanır, ayrı-ayrı ayələr təhlil olunur.

Dissertasiyanın **«Müsəlman yeniyetmələrdə dini münasibətlər»** adlanan III fəslinin üçüncü yarımfəsli bilavasitə müsəlman yeniyetmələrdə dini identikliyin formalaşmasının psixoloji məsələləri diqqət mərkəzinə gətirilir. Yeniyetməlik dövrü insan həyatının ən mühüm mərhələsidir. Yeniyetməlik dövründə insanın bütün varlığında dərin dəyişikliklər baş verir. Demək olar ki, bu yaş dövründə insanın daxilində onun bütün hisslərinə təkan verən bir partlayış baş verir. Buna görə də psixoloqlar bu dövrü yeniyetmənin əqli həyatının başlanğıcı hesab etmişlər. Bu dövrlərdə yeniyetmələr qarşısında bir çox suallar meydana çıxır və bunlara qaneedici cavablar da tapılmalıdır. Bura-

da yeniyetmələrin ilkin mərhələdə qavramalı olduqları və digər hərəkətlər üçün lazımlı olan dini identiklik İlahinin hakimliyinə və malikliyinə iman və etiqad (tohid), ölümdən sonrakı həyat, yaxud axirət dünyası (məad) , İlahi peyğəmbərlərinin canişinliyinə inam (nubuvvət) və s. kimi dini məsələlər saf-çürük edilir.Bununla yanaşı burada müsəlman yeniyetmələrdə dini münasibətlərin təzahür xüsusiyyətləri də qeyd olunur.

Dissertasiyanın **«Namaz və dua dini identikliyin fəlsəfəsi kimi»** adlanan III fəslinin dördüncü yarımfəslində yeniyetmələrin namaz qılmasının psixoloji məsələləri və duanın dini identikliyinin fəlsəfəsi təqdim olunur. Həmin yarımfəsildə göstərilir ki, islam dinində ən mükəmməl və ən mütərəqqi həyat fəlsəfi həyatdır. Namaz və dua yeniyetmələr üçün psixoloji inkişaf və formalaşmanın bir vasitəsidir. Müsəlmanların din xadimləri ondan həyat təlimi və fəlsəfəsi üçün bir məktəb yaratmışlar. Dinimizdə namaz və dua bir aciz kasıb və yoxsulun bir əlçatmaz qüdrət qarşısında öz maddi ehtiyaclarının aradan qaldırılması üçün ayağa düşməsi deyil. Namaz və dua bir lətif hiss və mənəvi ehtiyacdır. Psixoloqların fikrincə, dua bizim zahirimizə və özümüzə ehtiyacı ifadə edir. Bir dua eşitmək pak və bəyənilən insani hisslərin yeniləşməsidir. Bu, yaxşılıqlara bağlanmaqla əldə olunur. Beləliklə, bu yarımfəsildə yeniyetmələr tərəfindən əldə edilən etiqad sonradan aşkar əməllər olaraq dini identiklik kimi yeniyetmələrin zahiri əməllərində özünü göstərməsi təsdiq olunur, mənəvi boşluqların doldurulmasında namaz və duanın rolu təhlil edilir.

Dissertasiyanın **«Namaz və orucla bağlı tədqiqatların nəticələrinin təhlili»** adlanan III fəslinin beşinci yarımfəslində namaz və orucla bağlı tədqiqatların nəticələrinin təhlili aparılır. Bu yarımfəsildə namaz və oruca yeniyetmələr tərəfindən əməl edilməsinin psixoloji məsələləri ekspermental-psixoloji tədqiqat obyektinə çevrilir.

Aparılmış tədqiqatda 9-15 yaş hüdudunda olan yeniyetmə oğlan və qızlar iştrak etmişlər. Bu məqsədlə sorğu hazırlanmış, bir il müddətində Astara, Ərdəbil, Zəncan, Təbriz, Qum, Tehran, Səmnan, Məşhəd, Əhvaz, Zahedan, Ərak, Kirmanşah və Şahrud kimi şəhərlərdə yaşayan yeniyetmələr arasında yayılaraq həyata keçirilmişdir. Sorğuların hazırlanması üçün Koper Smitin ikinci hissəsində mənlik hissi əsasında dini identiklik sorğusundan istifadə edilmişdir. Tədqiqatda çoxluq yayılma, orta faiz, sütunlu göstərici və əlaqə əmsalı kimi təsvir və statistik metodlarından istifadə edilmişdir.

Yeniyetmələrin icra etdikləri dini ayinlərin onların psixi saglamlığına təsirinin göstəriciləri

Cədvəl 3.1.

| Şəhər və bölgələrin adı | Cavabların göstəriciləri | | | |
|---|---|---|---|---|
| Astara | Oğlanlar | 70% | qızlar | 85% |
| Ərdəbil | // | 70% | // | 80% |
| Ərak | // | 75% | // | 75% |
| Əhvaz | // | 70% | // | 80% |
| Təbriz | // | 80% | // | 80% |
| Tehran | // | 70% | // | 70% |
| Zəncan | // | 85% | // | 85% |
| Zahedan | // | 75% | // | 70% |
| Səmnan | // | 75% | // | 85% |
| Şahrud | // | 75% | // | 85% |
| Qum | // | 85% | // | 90% |
| Kirmanşah | // | 70% | // | 80% |
| Məşhəd | // | 85% | // | 85% |

Cədvəldən3.1-dən göründüyü kimi yeniyetmələr üzrə orta göstərici oğlanlar üçün 75,7%, qızlar üçün isə 80,7%-dir. Yeniyetmələr inanırlar ki, onların dini identikliklə bağlı etiqadların və icra etdikləri əməllərin onların psixoloji sağlamlığına müsbət təsiri vardır.

Yeniyetmələrin namaza riayət etmələrinin nəticələrinin göstəriciləri ( %-lə)

Cədvəl 3.2.

| Şəhər və bölgələrin adı | Cavabların göstəriciləri | | | |
|---|---|---|---|---|
| Astara | Oğlanlar | 65% | qızlar | 80% |
| Ərdəbil | // | 65% | // | 85% |
| Ərak | // | 70% | // | 80% |
| Əhvaz | // | 60% | // | 70% |
| Təbriz | // | 75% | // | 75% |
| Tehran | // | 65% | // | 75% |
| Zəncan | // | 75% | // | 70% |
| Zahedan | // | 70% | // | 70% |
| Səmnan | // | 65% | // | 70% |
| Şahrud | // | 70% | // | 75% |
| Qum | // | 75% | // | 85% |
| Kirmanşah | // | 60% | // | 75% |

| | | |
|---|---|---|
| Məşhəd | // 75% | // 80% |

Cədvəl 3.2-dən göründüyü kimi yeniyetmələr üzrə orta göstərici oğlanlar üçün 68,4%, qızlar üçün isə 76,1%- dir. Yeniyetmələr namaz qılmalarını öz dini identiklərində mühüm amil olaraq icra edirlər. Bu fakt onu göstərir ki, yeniyetmələr özlərinin dini identikliyini namaz qılmaqla təzahür etdirirlər.

Yeniyetmələrin oruc tutmalarının nəticələrinin göstəriciləri (%-lə)

Cədvəl 3.3.

| Şəhər və bölgələrin adı | Cavabların göstəriciləri | |
|---|---|---|
| Astara | Oğlanlar 60% | qızlar 75% |
| Ərdəbil | // 65% | // 75% |
| Ərak | // 65% | // 70% |
| Əhvaz | // 65% | // 70% |
| Təbriz | // 65% | // 75% |
| Tehran | // 60% | // 70% |
| Zəncan | // 65% | // 75% |
| Zahedan | // 60% | // 60% |
| Səmnan | // 65% | // 70% |
| Şahrud | // 65% | // 75% |
| Qum | // 70% | // 80% |
| Kirmanşah | // 65% | // 65% |
| Məşhəd | // 70% | // 75% |

Cədvəldən 3.3-dən göründüyü kimi yeniyetmələr üzrə orta göstərici oğlanlar üçün 64,6%, qızlar üçün isə 71,9%-dir. Yeniyetmələr davamlı oruc tuturlar və bu əməli bir dini identiklik olaraq icra edirlər.

Yeniyetmələrin və gənclərin dini etiqad səviyyəsinin göstəriciləri

Cədəvəl 3.4.

| Aşağı dərəcə | | Orta dərəcə | | Yüksək dərəcə | | Dini etiqad %-lə |
|---|---|---|---|---|---|---|
| Qız | oğlan | qız | oğlan | qız | oğlan | |
| 69%<br>58% | 69%<br>56% | 52%<br>63% | 61%<br>58% | 57%<br>47% | 54%<br>46% | Yeniyetmələr<br>Gənclər |

Cədvəl 3.4-dən də göründüyü kimi, yeniyetmələr dini məzhəbə gənclərdən daha çox bağlıdırlar. İnsanın ailə səviyyəsi yüksəldikcə insanın

dini əqidəsi zəifləyir. Bunun səbəbini valideynlərin dini etiqada və psixoloji sağlamlığa diqqətsizliyi ilə əlaqələndirmək olar. Tədqiqatda göstərir ki, qızlar oğlanlara nisbətən dini identikliyə daha tez malik olurlar.

Sorğunun dini identikliklə bağlı əməllərin icra keyfiyyətinə aid ikinci hissəsindən çıxarılan nəticələr belədir:

- Etiqadın, namaz qılmaq və oruc tutmanın ruhi-psixoloji sağlamlığa təsiri ilə bağlı olan sualların cavabında oğlan yeniyetmələr 75,7%, qızlar isə 80,7% təşkil etmişlər və dini identikliyin təsir xüsusiyyətləri yüksək olduğu müəyyən olunmuşdur.
- Namazın davamlı qılınması ilə bağlı yeniyetmə oğlanlar 68,4%, qızlar isə 76,1% təşkil etmişlər. Namaz qılınması sonrakı mərhələlərdə davam etdirilir.
- Orucun davamlı tutulması ilə bağlı yeniyetmə oğlanlar 64,6%, qızlar isə 71,9% təşkil etmişlər. Onlar sonrakı illərdə də mübarək Ramazan ayında oruc tutmağa davam edirlər.

Dini identikliyin formalaşmasının yaş dinamikasının göstəriciləri

Cədvəl. 3.5

| yaş | 9 yaş | | 10 yaş | | 11yaş | | 12 yaş | | 13 yaş | | 14 yaş | | 15 yaş | | cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| cinsi | F | P | F | P | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| qız | - | - | 242 | 23/07 | 198 | 18,85 | 266 | 25/33 | 181 | 17/23 | 96 | 9,14 | 61 | 6,38 | 105 | %100 |
| oğlan | - | - | 283 | 19/26 | 204 | 21,47 | 238 | 25/05 | 204 | 21/47 | 49 | 5,15 | 12 | 1,51 | 950 | %100 |
| cəmi | - | - | 425 | 21/25 | 402 | 20,1 | 504 | 25/2 | 385 | 19/25 | 145 | 1,25 | 139 | 6,95 | 2000 | %100 |

Cədvəl. 3.5-ə əsasən demək olar ki, yeniyetmələrin dini identikliyi ilə bağlı qızların qrupunda minimum 12 yaş (F=266 nəfər) (P=%25,33) maksimum 15 yaş (F=61 nəfər) (P=%6,38) təşkil edir. Oğlanların qrupunda isə maksimum 12 yaş (F=238 nəfər) (P=%25,05) minimum 14 yaş (F=49 nəfər) (P=%5,15) təşkil edir. Qızların və oğlanların nəticələrirnin təhlili göstərir ki, burada əlaqə 14 % təşkil edir. Nəticə belədir ki,qızlar və oğlanlar maksimum 12 yaşda dini identikliklə tanış olurlar. 14 və 15 yaşda minimum 10% dini identikliklə tanış olurlar. Belə qənatə gəlmək olar ki, yeniyetmələrin dini identikliyə malik olmasına ailə və məktəb ciddi təsir göstərirlər.

Dəstəmaz, namazın mətni və qılınması ilə bağlı yaş dinamikasının göstəriciləri

Cədvəl 3.6

| yaş | 9 yaş | | 10 yaş | | 11 yaş | | 12 yaş | | 13 yaş | | 14 yaş | | 15 yaş | | cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| cinsiyyət | F | P | F | P | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| qız | 997 | 94/95 | 53 | 5/05 | - | - | - | - | - | - | - | - | - | - | 1050 | %100 |
| oğlan | 205 | 21/57 | 307 | 32/31 | 144 | 15/15 | 86 | 9/05 | 43 | 4/52 | 163 | 17/15 | 2 | 0/2 | 950 | %100 |
| cəmi | 1202 | 60/1 | 360 | %18 | 144 | 7/2 | 86 | 4/3 | 43 | 2/15 | 163 | 8/15 | 2 | 0/1 | 2000 | %100 |

Cədvəl 3.6-dan görünür ki, yeniyetmələrin dini identikliyi ilə bağlı dəstəmaz, namazın mətni və qılınması qızların qrupunda, maksimum 9 yaş (F=991 nəfər) (P=%94/95) minimum 10 yaş (F=53 nəfər) (P=%5/05) təşkil edir. Oğlanların qrupunda, maksimum 10 yaş (F=301 nəfər) (P=%32/31) minimum 15 yaş (F=2 nəfər) (P=% 0/2) təşkil edir. Qızlarla və oğlanların arasında göstərici və əlaqə nəticəsi 56% təşkil edir. Qızlar və oğlanlar maksimum 9 və 10 yaşda namazın mətni ilə və qılınması ilə tanış olurlar.

Allahın birliyi, qüdrəti, nemətləri və qiyamət gününə aid məlumatların davranışa təsirinin göstəriciləri

Cədvəl 3.7.

| Yeniyetmənin münasibəti | Heç vaxt | | Nadir hallarda | | Bəzən | | Hər zaman | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| cinsiyyət | F | P | F | P | F | P | F | P | F | P |
| qız | - | - | 200 | 19/04 | 505 | 48/09 | 345 | 32/85 | 1050 | %100 |
| oğlan | - | - | 121 | 12/13 | 412 | 43/36 | 417 | 43/89 | 950 | %100 |
| cəmi | - | - | 321 | 16/05 | 917 | 45/85 | 162 | 38/1 | 2000 | %100 |

Allahın birliyi, qüdrəti, nemətləri və qiyamət gününə aid məlumatların davranışa təsirinin göstəricilər qızların qrupunda, maksimum (F=505 nəfər) (P=%48/09), minimum (F=200 nəfər) (P=%19/04) olmuşdur. Oğlanların qrupunda maksimum (F=417 nəfər) (P=%43/89), minimum (F=121 nəfər) (P=% 12/73) olmuşdur. Qızlarla və oğlanların arasında göstərici və əlaqə nəticəsi ikinci davranış keyfiyyətində (P=%51) təşkil edir ki, bu da mənalı əlaqənin olmasını göstərir.

Namaz qılmağın və oruc tutmağın yeniyetmələrin əxlaqına və fiziki sağlamlığına təsirinın göstəriciləri

Cədvəl 3.8.

| Yeniyetmə-nin münasibəti | Heç vaxt | | Nadir hallarda | | Bəzən | | Hər za-man | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| cinsiyyət | F | P | F | P | F | P | F | P | F | P |
| qız | - | - | 121 | 12/09 | 512 | 48/16 | 411 | 39/1 | 1050 | %100 |
| oğlan | - | - | 152 | %16 | 411 | 43/26 | 387 | 40/13 | 950 | %100 |
| cəmi | - | - | 219 | 13/95 | 923 | 46/15 | 198 | 39/5 | 2000 | %100 |

Cədvəl 3.8-dən görünür ki, namaz qılmağın və oruc tutmağın yeniyetmələrin əxlaqına, fiziki və psixi sağlamlığına təsiri yeniyetmələrin dini identikliyi ilə bağlı davranış keyfiyyətlərindən asılıdır. Qızların qrupunda maksimum (F=512 nəfər) (P=%48/76) (bəzi zaman), minimum (F=127 nəfər) (P=%12/09), (nadir halda) olmuşdur. Oğlanların qrupunda, maksimum (F=411 nəfər) (P=%43/26) (bəzən) minimum (F=152nəfər) (P=% 16), (nadir halda) təşkil edir. Qızlarla oğlanların arasında göstərici və əlaqə nəticəsi üçüncü davranış keyfiyyətində (P=%56) təşkil edir. Bu da mənalı əlaqənin olduğunu göstərir.

Yeniyetmələrin oruc tutmağa bir dini əməl kimi icra etmələrinin ğöstəriciləri

Cədvəl 3.9

| Yeniyetmə-nin münasibəti | Heç vaxt | | Nadir hallarda | | Bəzən | | Hər zaman | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| cinsiyyət | F | P | F | P | F | P | F | P | F | P |
| qız | 100 | 9/52 | 223 | 21/23 | 384 | 36/57 | 343 | 32/66 | 1050 | %100 |
| oğlan | 67 | 7/05 | 381 | 40/10 | 220 | 23/15 | 282 | 29/68 | 950 | %100 |
| cəmi | 167 | 8/35 | 604 | 30/2 | 604 | 30/2 | 625 | 31/25 | 2000 | %100 |

Cədvəl 3.9–dan görünür ki, yeniyetmələrin oruc tutmağa bir dini əməl kimi icra etmələrinin ğöstəriciləri qızların qrupunda, maksimum (F=384 nəfər) (P=%36/57) (bəzi zaman), minimum (F=100 nəfər) (P=%9/52), (heç vaxt) olmuşdur. Oğlanların qrupunda, maksimum (F=381 nəfər) (P=%40/10) (nadir halda), minimum (F=67 nəfər) (P=% 7/05), (heç vaxt) olmuşdur. Qızlarla və oğlanların

arasında göstərici və əlaqə beşinci davranış keyfiyyətində (P=%95) təşkil edir ki, bu da mənalı əlaqənin olduğunu göstərir.

Apardığımız tədqiqat göstərdi ki, yeniyetmələrin dini identikliyi onların dini təsəvvürlərinin inkişaf səviyyəsindən, dini inamından və dini ayinlərin icra davamlılığından çox asılıdır. Bununla bahəm ailədə dini ayinlərə riayət etmə də dini identikliyin yaranmasına təsir göstərən amillərdəndir.

Dissertasiyanın **«Yeniyetmələrin psixoloji sağlamlığında dini identikliyin rolu»** adlanan III fəslinin altıncı yarımfəslində yeniyetmələrin psixoloji sağlamlığında dini identikliyin rolu araşıdırlır. Burada dini etiqadlar pedaqoji psixologiya və psixiatriya elmi ilə birgə ortaq məxrəcdə tədqiq olunur. Bu yarımfəsildə yeniyetmələrin təlim-tərbiyəsi və psixi sağlamlığında buraxılmış səhvlərin onlarda dini identiklik böhranının yaranmasına gətirib çıxardığı qeyd olunur.

Apardığımız tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Müəyyən edildi ki, yeniyetmələrin dini identikliyi onların dini təsəvvürlərinin inkişaf səviyyəsindən, dini inamından və dini ayinlərin icra davamlılığından çox asılıdır. Bununla bahəm ailədə dini ayinlərə riayət etmə də dini identikliyin yaranmasına təsir göstərən amillərdəndir.
- Tədqiqat göstərdi ki, din psixoloji ziddiyyətlərə uzun müddət şəfaverici təsir göstərir. Anoloji qruplarda təsadüfi nümunə seçimləri göstərmişdir ki, namaz qılmaqla üzüntüdən xilas olmaq arasında bağlılıq vardır. Yeniyetmələrdə dini identiklik və dini ehkamla bağlı diqqətin yaradılmasında təsiredici mühit amilləri arasında həmyaşıdların və dostların rolu yüksəkdir.
- Yeniyetmə oğlan və qızlarla bağlı aparılmış tədqiqatlar göstərir ki, qızlarda namaza bağlı dostlarla əlaqə 33,9%, oğlanlarda bu göstərici 27,3% təşkil etmişdir. Bu gğstərir ki, qızlarda oğlanlara nəzərən dini ayinlərin icrası əsasən həmyaşıdlarının təsiri daha çoxdur.
- Apardığımız tədqiqat göstərdi ki, Allahın adına ehtiram, başqa insanlarla əlaqə, ata-anaya qayğı, yaşayış tərzinə hörmət, ədalət və həqiqətsevərlik yeniyetmələrdə dini identikliyin formalaşmasında mühim vasitələrdən biridir.
- Müəyyən edildi ki, yeniyetmələrdə dini etiqadlar ruhi-psixoloji ziddiyyətlərin qarşısının alınmasında çox mühüm rol oynayır. İnsanın nəfəs alması üçün hava nə qədər əhəmiyyətlidirsə, onun ruhi-psixoloji sağlamlığının inkişafı üçün də din bir o qədər əhəmiyyətli-

dir.
-Ailənin sosial mövqeyi, səviyyəsi yüksəldikcə onun üzvlərinin dini əqidəsi zəifləyir. Bunun səbəbini valideynlərin dini etiqada və psixoloji sağlamlığa diqqətsizliyi ilə əlaqələndirmək olar. Tədqiqatda göstərir ki, qızlar oğlanlara nisbətən dini identikliyə daha tez malik olurlar.

-Yeniyetmələrdə dini identikliyin formalaşması istiqamətləri dini ayinlərin icra tərzindən və intensivliyindən, eləcə də cəmiyyətdə və ailədə dini məsələlərin konkret təbliğindən və yeniyetmənin dünyagörüşündən asılıdır;

- Yeniyetmələrdə dini identikliyin təşəkkülünün psixoloji mexanizmi dini təsəvvürlərə münasibətdən və onun adekvat qavranılması xüsusiyyətlərindən asılıdır.

- Yeniyetmələrdə dini identikliyin şəxsi və xarakterik xüsusiyyətləri dini məsələlərə hazırlıq səviyyələri və s. kimi cəhətlər onların dini özünüqiymətləndirmənin meyarları kimi çıxış edə və dini ayinlərin icrasının stimulu ola bilər;

-Nəzərə almaq lazımdır ki, qeyri-adekvat dini identikliyin formalaşması yeniyetmələrdə mənəvi boşluqların yaranması fonunda baş veriri ki, bu da yeniyetmələrin müxtəlif dini-xurafatçı təşkilatların təsirinə düşməsinə gətirib çıxara bilər. Belə xoşagəlməz halların aradan qaldırılması üçün yeniyetmələrə həqiqi dini məsələləri başa salmaq və onları maarifləndirmək lazımdır.

Dissertasiyanın müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:

1. Dinin ailədəki rolunun pedaqoji – psixoloji əsasları/ Gənc tədqiqatçıların I Beynəlxalq Simpoziumu. Bakı: 2007, s. 206-210.

2. Yeniyetmələrin psixi və fiziki inkişafında dinin rolu // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri Bakı, 2008, №1, s. 348-355.

3. Yeniyetmənin psixoloji xüsusiyyətləri və şəxsiyyətinin formalaşmasına onun təsiri // Psixologiya jurnalı, Bakı, 2008,№4, s. 153-158

4. Yeniyetmə və onun dini dəyərlərlə yaşaması // Dil və ədəbiyyat jurnalı, Bakı, 2008,№ 5(65), s. 219-220

5. Yeniyetmələrin dini identikliyi // Dil və ədəbiyyat jurnalı, Bakı, 2009, №2(68), s.238-240.

6. Yeniyetmələrdə fitri istedadnın və dini identikliyin inkişafı // Kültür Evreni, Ankara, 2009,№2, s. 295-300

7. Yeniyetmələrdə identiklik və onun formalaşmasına təsir göstərən psixoloji amillər// Psixologiya jurnalı, Bakı, 2009, №1, s. 58-63

8. К проблеме чуства собстенного достинства и его взаимосвязи с релизной идентичностью у подростков// Вопросы гуманитарных наук, Москва, 2009, №5, ст. 217-222.

9. Yeniyetmələrin dini identikliyinin formalaşmasına təsir göstərən amillər// Psixologiya jurnalı, Bakı, 2009, №4, s. 167-174

10. Yeniyetmələrin davranışında bəzi psixoloji məqamlar // Azərbaycan məktəbi jurnalı, Bakı, 2009, №6 (634), s. 71-76

11. Роль семьи в формировании религиозной идентичности у подростков // Актуальные проблемы гиммуанитарных и естественных наук, Москва, 2009, №11, с. 279-281

12. Yeniyetmələrin dünya görüşünün formalaşmasına təsir edən bəzi amillər haqqında // Azərbaycan məktəbi jurnalı, Bakı, 2010, №3(637), s. 83-87

13. Yeniyetmələrin psixoloji sağlamlığında dini identikliyin rolu / Beynəlxalq elmi – praktik konfransın materialları. Bakı: 2011, s. 593-598

14. Проблемы религиозной идентичности у подростков // Вектор науки, Тольятии, 2012, №1, (8) с. 22-25

**Фарамаз Хазар оглу Акбериан**

## Психологические особенности религиозной идентичности у подростков

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем современности – исследованию психологических особенностей религиозной идентичности у подростков. Сегодня появление новой системы ценностей, усиление интеграционных процессов могут привести к неадекватному развитию религиозной идентичности у детей переходного возраста. Как показывают факты, формирование религиозной идентичности в адекватном направлении заполняет духовную пустоту, возникающую у подростков, создает почву для становления их самосознания как личности. С этой точки зрения исследование этой проблемы важно и необходимо. Диссертационная работа состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Первая глава диссертации – «Личность и религиозные понятия в подростковом возрасте» – посвящена анализу психологических особенностей переходного возраста в связи с формированием у подростков религиозных понятий. Здесь группируются ценности религиозной идентичности, систематизируются имеющиеся в этой области представления, а также определяются виды религиозной идентичности у подростков. В этой главе отмечаются методы формирования религиозной идентичности, пути и средства преодоления кризиса идентичности.

Во второй главе диссертации под названием «Психологические вопросы формирования и развития религиозной идентичности у подростков» исследуются проблемы группирования направлений изучения религиозной идентичности у подростков, рассматриваются проявления у них чувства религиозности. Здесь указывается, что в вопросах ознакомления подростков с религиозными представлениями на первый план выдвигаются: совершение намаза, соблюдение поста, уважение к матери, отцу, старшим и религиозным верованиям. Наряду с этим, в данной главе выявляются различные факторы, влияющие на формирование религиозной идентичности у подростков, исследуется и определяется их роль в данном процессе.

В третьей главе диссертации под названием «Коран и взаимовлияние религиозной идентичности у подростков» рассмотрены божественные законы и правила для верующих мужчин и женщин, направляющие их на пути добродетели. В этой главе исследуются общие связи между исламом и христианством. Как показывает исследование, религиозная идентичность подростков во многом зависит от уровня развития их религиозных представлений, религиозной веры и устойчивости исполнения религиозных обрядов. Наряду с этим, семья является важным, фактором, формирующим и развивающим религиозную идентичность у подростков.

В заключительной части обобщаются основные научные выводы диссертационной работы и выдвигаются некоторые рекомендации.

**Faramaz Khazar Akberian**

## Psychological Features of Religious Identity at Teenagers

## SUMMARY

Dissertational work is devoted to one of actual problems of the modernity – to research of psychological features of religious identity at teenagers. Today occurrence of new system of values, strengthening of integration processes can lead to inadequate development of religious identity in children of awkward age. As show the facts, formation of religious identity in an adequate direction fills the spiritual emptiness arising at teenagers, creates soil for formation of their consciousness as persons. From this point of view research of this problem important also is necessary. Dissertational work consists of the introduction, three heads, the conclusion, the list of the used literature and appendices.

The first chapter of dissertation - «the Person and religious concepts of teenage age» - is devoted to the analysis of psychological features of awkward age in connection with formation at teenagers of religious concepts. Here values of religious identity are grouped, representations available in this area are systematized, and also kinds of religious identity at teenagers are defined. In this chapter are marked methods of formation of religious identity, a way and means of overcoming of crisis of identity.

In the second chapter of the dissertation under the name «Psychological questions of formation and development of religious identity in teenagers» are investigated problems of grouping of directions of studying of religious identity at teenagers; displays at them feeling of religiousness are considered. Here it is underlined, that in questions of acquaintance of teenagers with religious representations on the foreground are put forward: fulfillment of namaz, post observance, respect for mother, and the father, the senior and religious beliefs. Along with it, in the given chapter the various factors influencing formation of religious identity at teenagers come to light, their role in the given process is investigated and defined.

In the third chapter of the dissertation under the name «The Koran and interference of religious identity at teenagers» are considered divine laws and rules for believing men and the women, directing them on a virtue way. In this chapter the general communications between Islam and Christianity are investigated. As shows research, religious identity of teenagers in many respects depends on a level of development of their religious representations, religious belief and stability of execution of religious practices. Along with it, the family is important, the factor forming and developing religious identity at teenagers.

In a final part the basic scientific conclusions of dissertational work are generalized and some recommendations are put forward.